**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**
**KOLLEGİYASI**

# Q Ə R A R
**№ 55-1**

**Bakı şəhəri** **19 dekabr 2019-cu il**

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2019-cu il üzrə fəaliyyəti haqqında illik hesabatı barədə

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi öz fəaliyyətində Azərbaycan Respublikası konstitusiyasının, Prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, respublikanın tərəfdar olduğu beynəlxalq konvensiyaları, dövlət proqramlarını rəhbər tutaraq il ərzində müvafiq tədbirlər həyata keçirmişdir.

Komitə öz fəaliyyətini bütün dövlət orqanları ilə səmərəli əməkdaşlıq şəraitində həyata keçirmişdir. Komitə tərəfindən Heydər Əliyev Fondu və beynəlxalq təşkilatlarla birlikdə bir sıra layihələr icra olunmuş, həmin layihələrdə qeyri-hökumət təşkilatları, müstəqil ekspertlər yaxından iştirak etmişdir. Eyni zamanda, Komitənin ölkəmizin rayonlarında təşkil etdiyi tədbirlərdə yerli icra, hüquq-mühafizə və məhkəmə orqanlarının, habelə yerli özünüidarəetmə orqanlarının nümayəndələri də yaxından iştirak etmişdirlər. Həmçinin 2019-cu il ərzində Komitəyə 3337 vətəndaş müraciəti, o cümlədən, 2267 ərizə, 1589 şikayət və 4 təklif daxil olmuşdur. Dövlət qurumlarından Komitəyə 1615 xidməti sənəd daxil olmuşdur. Vətəndaşların müraciətləri ilə əlaqədar aidiyyəti dövlət qurumlarından Komitəyə daxil olan bütün müraciətlər Komitənin səlahiyyətləri və vəzifələri çərçivəsində baxılmış və cavablandırılmışdır.

Dövlət **ailə siyasətinin** həyata keçirilməsi istiqamətində ailə institutunun təbliği, milli-mənəvi dəyərlərin gənc nəsilə aşılanması, eləcə də qadınların cəmiyyətdə fəallığının və iştirakçılığının artırılması məqsədilə yerlərdə özünüidarəetmə orqanlarının imkanlarını nəzərə alaraq, bələdiyyə orqanları ilə birgə 2017-ci ildən etibarən davam edən "Ailə

Akademiyası" layihəsinə yekun vurulmuşdur. Bu il regionlarda 7 yerli icra hakimiyyətləri və 31 şəhər və rayon üzrə yerli özünüidarəetmə orqanlarının iştirakı ilə tədbirlər keçirilmişdir. Eyni zamanda keçirilən tədbirlərdə gənclər və xüsusilə gənc ailələr, sosial iştirakçılığı zəif olan insanlar faydalanmışdır. Bu il keçirilən tədbirlərdən 600 nəfərdən artıq bələdiyyə, eyni zamanda rayon ictimaiyyət nümayəndələri faydalanmışdır.

Komitənin təşəbbüsü ilə Səhiyyə Nazirliyi və Təhsil Nazirliyi ilə birgə Bakı şəhərində yerləşən ilk peşə- ixtisas təhsili müəssisələrində gənc və yeniyetmələr arasında sağlam həyat tərzinin təbliği, gənclərin ailə həyatına hazırlığı, reproduktiv sağlamlıq və ailə planlaşdırılması sahəsində gənclərin maarifləndirilməsi məqsədi ilə müvafiq sahə üzrə ekspertlərin iştirakı ilə tədbirlər həyata keçirilmişdir. Keçirilən tədbirlərdə mövzu ilə əlaqədar "Azərbaycan Ailəsi" film festivalına təqdim olunan filmlər nümayiş etdirilmişdir. İl ərzində əksər təhsil ocaqlarında "Sağlam həyat tərzi naminə ziyanlı vərdişlərə YOX deyək!", "Sağlam həyat tərzi.QİÇS-dən qorunma yolları" , "İnfeksion və qeyri-infeksion xəstəliklərin profilaktikası", "Reproduktiv sağlamlıq və ailə planlaşdırılması", "Qohum evliliyi və talassemiya", "Ana südü ilə qidalanma", "Reproduktiv sağlamlıq. Erkən nikahların fəsadları" mövzularında tədbirlər keçirilmişdir. Keçirilən tədbirlərdən 650 nəfərdən artıq tələbə, eləcə də müəllim heyəti faydalanıb.

BMT-nin Baş Assambleyasının 20 sentyabr 1993-cü il qətnaməsinə müvafiq olaraq 15 may tarixi bütün dünyada "Beynəlxalq Ailə günü" kimi qeyd olunur. Hər il olduğu kimi, 15 may 2019-cu il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Beynəlxalq Ailə günü"nə həsr olunmuş "Ailə dəyərlərinin möhkəmləndirilməsi cəmiyyətin mənəvi sağlamlığının əsasıdır" adlı konfrans keçirilmişdir. Konfrans çərçivəsində ailələrin əl işlərindən ibarət sərgiyə baxış keçirilmişdir və seçilmiş ailələr "Əl işləri üzrə nümunəvi ailələr sərgisi" üzrə diplom və hədiyyələrlə mükafatlandırılmışdır. Keçirilən konfransda 100 nəfərdən artıq ailələr, xüsusilə gənc ailələr, ictimaiyyət nümayəndələri iştirak edib.

Eyni zamanda 2009-cu ildən etibarən Komitə, Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə həyata keçirilən 11-ci "Azərbaycan ailəsi" beynəlxalq film festivalı uqurla həyata keçirilmişdir. 11-ci "Azərbaycan ailəsi 2019" film festivalına 41 iştirakçı tərəfindən 49 film təqdim olunmuş və bunlardan müsabiqənin məqsəd və ideyasına uyğun olan 47 film müsabiqəyə buraxılmışdır. Festivalın sonunda təntənəli mükafatlandırılma mərasimi keşirilmişdir. Mükafatlandırılma mərasimində münsiflər heyəti tərəfindən 8 əsas nominasiya üzrə qalib seçilən və yerli icra hakimiyyətləri tərəfindən 7 xüsusi mükafata layiq görülən foto və filmlər təltif

olunmuşdur. Ümumilikdə 11 il ərzində festivalın fonduna 11 il ərzində 345 rejissor tərəfindən 386 film, o cümlədən 42 xarici film (Türkiyə, Rusiya, Belarusiya, Ukrayna, İran, Bolqarıstan, Özbəkistan, Almaniya, Macarıstan, İsveç, Qırğızıstan, Mərakeş və Fransa) və 144 fotoqraf tərəfindən 527 fotoşəkil təqdim olunmuşdur.

Ailədə mütaliə ənənəsinin təbliği və gücləndirilməsi, mütaliə vasitəsi ilə ailənin sosial və psixoloji funksiyalarının möhkəmləndirilməsi, bədii, müasir, elmi-kütləvi ədəbiyyatın gənclər və valideynlər arasında təbliği, eləcə də asudə vaxtın mənalı, səmərəli və düzgün nizamlanması məqsədilə Komitə tərəfindən 2018-ci ildən etibarən həyata keçirilən "Ailəliklə kitabxanaya" layihəsinin davamı olaraq Sabunçu rayonunda tədbir keçirilmişdir. Keçirilən tədbirdən 60 nəfərdən artıq gənc faydalanıb.

Milli-mənəvi, ailə dəyələrinin gənclərə aşılanması, ailə mədəniyyətinin təbliği məqsədilə Komitə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "Gənclər və ailə: ənənə və müasir baxış" mövzusunda tədbir və "Azərbaycan Mədəniyyət Assosiasiyası"nın birgə təşkilatçılığı ilə Qusar Rayonunda "Kulturologiya və Azərbaycanda ailə mədəniyyəti" mövzusunda kulturoloji seminar keçirilmişdir. Keçirilən tədbirdən 200 nəfərdən artıq gənc faydalanmışdır.

Komitə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyi tərəfindən birgə əməkdaşlıq çərçivəsində xalqımızın milli-mənəvi dəyərlərinin təbliği, ümumbəşəri dəyərlərə hörmətin təşviqi, müxtəlif dini inanclara mənsub ölkə vətəndaşlarının sülh və mehribanlıq şəraitində birgəyaşayışının təmin edilməsi istiqamətində keçirilən tədbirlərin davamı olaraq Bakı Dövlət Universitetində "Prezident İlham Əliyevin siyasəti, güclü Azərbaycan, dayanıqlı sabitlik" mövzusunda tədbir keçirilmişdir. Keçirilən tədbirdən 100 nəfərdən artıq tələbə, eləcə də müəllim heyəti faydalanmışdır.

Komitə tərəfindən 2016-cı ildən etibarən Müdafiə Nazirliyinin dəstəyi ilə hərbi hissələrdə, hərbi təhsil müəssisələrində dövlət ailə siyasətinin həyata keçirilməsi məqsədilə Azərbaycan ailəsinə xas milli-mənəvi dəyərlərin təbliği, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində əsgərlər, zabitlər, hərbçilər və kursantlar üçün həyata keçirilən maarifləndirmə tədbirlərin davamı olaraq həyata keçirilməsi təmin olunmuşdur.

***Qadın problemləri və gender məsələləri şöbəsi*** hesabat ili ərzində qadın hüquqları və gender bərabərliyi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, erkən nikahlar, məişət zorakılığı və reproduktiv sağlamlıq haqqında maarifləndirmə, qadınlar arasında sahibkarlığın inkişafı və məşğulluğun artırılması istiqamətində peşə kurslarının, maliyyə savadlılığı təlimlərinin keçirilməsi, qadınların əl işlərindən ibarət satış sərgilərinin təşkili,

gender məsələləri üzrə məsul şəxslərlə işin aparılması və sairə istiqamətlərdə işlər görmüşdür.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 7 mart 2019-cu il tarixində “8 Mart Beynəlxalq Qadınlar Günü”nə həsr olunmuş “Qadınlar Dayanıqlı İnkişafa Doğru” adlı tədbir keçirmişdir.

Tədbirdə ölkə başçısının qadınlara təbrik məktubu səsləndirilmiş və Azərbaycan elminin və mədəniyyətinin inkişafında öz sözlərini demiş, eləcə də ictimai-siyasi sahədə mühüm xidmətləri olan 20 qadına Prezident təltifləri təqdim olunmuş və 7 qadın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mükafatlandırılmışdır.

2011-ci ildən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə Azərbaycanda “Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı” texniki yardım layihəsi həyata keçirilir. Layihənin məqsədi kənd və rayon yerlərində yaşayan qadınların və gənclərin iqtisadi həyatda fəal iştirakı, sahibkarlıq fəaliyyəti və məşğulluğu üçün iqtisadi imkan və bacarıqlarının artırılmasıdır.

Layihə Biləsuvar, Salyan, Sabirabad, Neftçala, Masallı, Zaqatala, Qusar, Xaçmaz, Bakı şəhəri Xəzər rayonlarında həyata keçirilir. 2011-2019-ci illərdə cəmi 9 Qadın Resurs Mərkəzi açılmışdır. Ümumilikdə layihə çərçivəsində 2019-cu ildə 700 nəfər qadın müxtəlif mövzularda təlimlərdə iştirak etmiş, 55 nəfər qadın sahibkarlıq fəaliyyətinə başlamışdır.

Layihə çərçivəsində görülən işlərin nəticəsi olaraq, 27-30 oktyabr tarixlərində Cenevre şəhərində , Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası tərəfindən keçirilən "Pekin 25+ regional iclas " çərçivəsində "Sahibkar Kəndli qadınlari dəyişikliyə aparan yol" tədbirində Qadın Resurs Mərkəzinin dəstəyi ilə öz bizneslərini quran qadın sahibkarların hazırladığı əl işləri və qida məhsullarını əks etdirən sərgi nümayiş etdirilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ənənəvi olaraq hər il Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır” adlı məqalə müsabiqəsi keçirir.

Bu il müsabiqə Quba-Qusar regionunda (Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonları) tam orta məktəblərin 9-11-ci sinif şagirdləri arasında keçirilmişdir. Müsabiqənin yekunlarına həsr olunmuş tədbir 6 may 2019-cu il tarixində Xaçmaz rayonunda yerləşən Heydər Əliyev Mərkəzində keçirilmişdir.

Dövlət Komitəsi Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə birgə 26 aprel 2019-cu il tarixində Memarlıq və İnşaat Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan

olmasının 96-cı il dönümünə həsr olunmuş "İnsan inkişafı. Dünyaya inteqrasiya" mövzusunda II Beynəlxalq Elmi Konfrans keçirilmişdir.

Dövlət Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə bir sıra rayonlarda erkən nikahların qarşısının alınması ilə bağlı maarifləndirici tədbir həyata keçirilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı ilə birgə həyata keçirdiyi "Məcburi köçkünlər, qaçqınlar və sığınacaq axtaran şəxslər arasında cinsi və gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirləri" layihəsi çərçivəsində Bakının bir sıra rayonlarında qaçqınların məskunlaşdıqları ərazilərdə gənclərə təlimlər keçirmişdir.

Dövlət Komitəsi tərəfindən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasınının 7.4 bəndinin icrasının təmin olunması, Birləşmiş Millətlər Təşkilatının "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya"sı (CEDAW), Pekin Bəyannaməsi və Fəaliyyət Platforması, Dayanıqlı İnkişaf Məqsədləri və digər beynəlxalq sənədlərə uyğun olaraq "Azərbaycan Respublikasında Gender Bərabərliyi üzrə 2020-2024-cü illər Milli Fəaliyyət Planı"nın layihəsi hazırlanmışdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti ilə birgə Asiya İnkişaf Bankının (AİB) dəstəyi ilə Azərbaycanda gender məsul şəxslərin bilik və bacarıqlarının artırılmasına yönələn layihə həyata keçirir. Layihə dövlət müəssisələrinin genderə-həssas idarəetməsini dəstəkləyən beynəlxalq metodologiya üzrə icra edilir.

Layihə çərçivəsində gender məsələləri və kadr məsələləri üzrə məsul şəxslər üçün Gender bərabərliyi anlayışları və CEDAW, Monitorinq və hesabatlandırma, İctimai vəkillik və lobbiçilik, Liderlik və qərarqəbuletmə, Ünsiyyət və şəbəkələşmə mövzularında beş günlük təlimlər təşkil olunmuşdur. Layihə 16 dövlət qurumunu əhatə etmişdir.

11 oktyabr 2019-cu il tarixində Dövlət Komitəsi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə "Türk Dünyasının Qadını: keçmişdən bu günə" adlı tədbir keçirmişdir. Tədbirdə türk dövlətlərinin nümayəndələri də iştirak etmişdir.

Dövlət Komitəsi Birləşmiş Millətlər Təşkilatı ilə birgə 25 noyabr 2019-cu il tarixində "Qadınlara və Qızlara Qarşı Zorakılığa Son Qoyaq" adlı Dəyirmi Masa keçirmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və AMEA İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə "Qadınlar İKT-də Beynəlxalq Günü"nə həsr edilmiş respublika elmi-praktiki konfransı keçirilib.

Konfransda ölkədə qadınların İKT sektorunda iştirak səviyyəsi, gender problemlərinin həllində İKT-nin rolu və perspektivləri, ölkəmizin mədəni mühitində qadınların sosial statusunun inkişafı baxımından kommunikasiyaların rolu haqqında məlumat verilmişdir.

Qadın sahibkarlığının inkişafına həsr olunmuş "Qadın sahibkarlığının inkişafı: təcrübə, imkanlar və nailiyyətlər" mövzusunda Beynəlxalq Forum keçirilib.

Forumda dünyanın 10-dan çox ölkəsindən (Türkiyə, Rusiya, Gürcüstan, İran, Ukrayna və s.) 30-dan çox nümayəndə iştirak etmişdir. Forum 2 hissədə öz işini həyata keçirib. Forumun I hissəsi plenar şəkildə, II hissə isə "Qadın sahibkarlığı Dayanıqlı İnkışaf Məqsədlərinə çatmaq üçün ən əhəmiyyətli amil kimi, "İKT vasitəsi ilə Qadın sahibkarlığının dəstəklənməsi və şəbəkələşmə", "Kənd ərazilərində sahibkalığın inkişafı üçün şəraitin yaradılması" mövzuları üzrə panellərlə davam etmişdir. Sesiyaların sonunda moderatorlar təklifləri toplamış, yekun Bəyannamə qəbul edilmişdir.

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası (BMT TŞ) Üzv Ölkələri "Qadınlar, Sülh və Təhlükəsizlik" üzrə 1325 saylı Qətnaməyə uyğun milli strategiya hazırlamağa təşviq edir.

Komitə tərəfindən "Qadınlar, Sülh və Təhlükəsizlik üzrə 1325 saylı Qətnaməsinin Azərbaycan Respublikasında Tətbiqinə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın layihəsi hazırlanmışdır. Təqdim olunan təkliflərlə layihə yenidən işlənərək dövlət orqanlarının müzakirəsinə təqdim olunmuş, Milli Fəaliyyət Planının layihəsinin mətni aidiyyəti qurumlarla razılaşdırılmışdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi digər dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq edir və bu istiqamətdə birgə tədbirlərin keçirilməsini təşkil edir. Komitə 11 aprel 2019-cu il tarixində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə birgə tədbir keçirmişdir. Tədbirdə Komitə yanında yaradılan İctimai Şuranın üzvləri, müxtəlif sahələr üzrə fəaliyyət göstərən Qeyri-Hökumət Təşkilatları iştirak etmişlər.

2 may tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə dəyirmi masa təşkil olunub.

Kiçik Biznes Aktı Siyasətinin Qiymətləndirilməsi Avropa Komissiyası, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı , Avropa Yenidənqurma və İnkişaf Bankı və Avropa Təhsil Fondunun iştirakı ilə həyata keçirilən görüşlərin məqsədi daha yaxşı qiymətləndirmə hesabatı hazırlamaq məqsədilə ölkənin aparıcı ekspertlərinin və maraqlı tərəflərin sahibkarlığın öyrənilməsi və qadın sahibkarlığı sahəsində əldə olunmuş nailiyyətlər barədə müzakirələrin aparılması, eyni zamanda, təcrübə və fikir mübadiləsi aparmaq, fəaliyyət istiqamətlərini müəyyən etməkdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 8 may 2019-cu il tarixində Qarabağ müharibəsi veteranları olan qadınlarla görüş keçirilmişdir.

19 sentyabr tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi  Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi birgə “Qadın hüquqlarının qorunmasında dini icmaların rolu” mövzusunda konfrans keçirmişdir.
Konfransda dini icmaların nümayəndələri, din xadimləri, qeyri hökumət təşkilatları və ictimaiyyət nümayəndələri iştirak etmişdir.
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi  Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) və  Qlobal Ekologiya Fondu ilə birgə “Kür II:Transsərhəd razılaşdırılmış fəaliyyətlər və milli planların həyata keçirilməsi yolu ilə Kür çayı hövzəsində su ehtiyatlarının inteqrasiyalı idarə olunmasının gücləndirilməsi” layihəsi çərçivəsində təlimlər həyata keçirmişdir.
Təlimlərin keçirilməsində məqsəd su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi, bu sahədə həyata keçirilən işlərə qadınların cəlb olunması və gender bərabərliyinin təmin olunması, su ehtiyatlarından səmərəli istifadə edilməsidir.
Ailə, Qadın Uşaq Problemləri üzrə Dövlət Komitəsi,  Azərbaycan Respublikasının Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və “Zəfər ” şəhid ailələlərinə dəstək İctimai Birliyi birgə məcburi köçkünlər üçün “Məişət zorakılığının mənfi nəticələrinin aradan qaldırılmasına dəstək” adlı layihə həyata keçirmişdir.
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası ilə birgə Qlobal Sahibkarlıq Həftəsinin qeyd olunmasına həsr olunmuş “Üfüqdə yeni fürsətlər: Qadın Sahibkarlara yaşıl işıq” adlı II Forum keçirmişdir.
Forumda “Uğurlu qadınların hekayəsi”, “İncəsənətdə sahibkarlığın inkişafı”, “Azərbaycanda Turizm Biznesi/Evdə məşğulluğun inkişafı”, “Biznes fəaliyyəti olan qadınlar: üstünlüklər, çətinliklər və imkanlar”, ”Azərbaycanda sahibkarlığın təşviqində biznes təhsilinin rolu” və  “Bankların qadınlara göstərdiyi dəstək mexanizləri” adlı panellər üzrə müxtəlif mövzularda çıxışlar edilmiş və mövzular ətrafında müzakirələr aparılmışdır.
Dövlət **uşaq siyasəti** istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir. Uşaqların müstəqil özünü ifadə etmək bacarıqlarının, cəmiyyətdə öz hüquq və maraqlarının müdafiəsi ilə bağlı proseslərdə aktiv iştirakının təmin edilməsi, həmçinin asudə vaxtlarının səmərəli keçirilməsi istiqamətində müəyyən nəticələr əldə olunmuşdur.
Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına əsasən Ailə, Qadın

və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən “2018-2028-ci illər üçün Azərbaycan Respublikasının Milli Uşaq Strategiyası”nın layihəsi hazırlanmışdır.
Uşaq hüquqlarının təmin edilməsi və müdafiə olunması dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir və bu istiqamətdə beynəlxalq sənədlərə ölkəmizin qoşulması istiqamətində tədbirlər görülməkdədir.
20 noyabr 2019-cu il tarixində Komitə tərəfindən BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyanın qəbul edilməsinin 30-cu ildönümünə həsr edilmiş tədbir keçirildi.“Uşaq hüquqları: suallar və cavablar” mövzusunda təşkil edilmiş dəyirmi masada öz fəallığı, intellektual səviyyəsi, xüsusi bacarıq və nailiyyətləri ilə seçilən uşaqlarla yanaşı, aztəminatlı ailələrdən olan, ümumilikdə 90-na yaxın uşaqların iştirakı təmin olunmuşdur.
Uşaqların həyati bacarıqlarının inkişaf etdirilməsi məqsədilə uşaqlar üçün (14-17 yaş) “Həyati bacarıqlara yiyələn!” mövzusunda təlimlər keçirilib. Təlimlərdə uşaqlara müasir dövrün tələblərinə uyğun olaraq bilik və bacarıqların əldə edilməsi və onlardan səmərəli istifadə yolları və digər həyati bacarıqlarının inkişaf etdirilməsi barədə məlumat və tövsiyələr verilib, mövzu ilə bağlı uşaqlarla qrup işləri aparılıb. Tədris prosesinə maneəçilik yaratmamaqla keçirilən təlimlərdə ümumilikdə 150 uşaq iştirak edib və keçirilib.
Lerik rayonunda, rayonun müxtəlif məktəblərində təhsil alan (yuxarı sinif şagirdləri, 60 nəfər) uşaqların iştirakı ilə “Uşaq hüquqlarını biləк və paylaşaq” adlı maarifləndirmə xarakterli növbəti tədbir təşkil olundu. Təlim zamanı uşaqlara uşaq hüquqlarının yaranma tarixi, həmin sahədə beynəlxalq və daxili qanunvericilik, müvafiq sahə üzrə fəaliyyət göstərən beynəlxalq və yerli təşkilatlar haqqında məlumat verildi.
“Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında” Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 22 oktyabr 2019-cu il tarixli, 1681-VQ saylı Qanununun qəbul edilməsi uşaqlara qarşı cinsi zorakılıq hallarının aradan qaldırılması istiqamətində daha effektiv tədbirlərin görülməsi baxımından böyük əhəmiyyət kəsb edir. “Hər beş uşaqdan biri” kampaniyası çərçivəsində 80 saylı orta məktəbdə “Uşaqların zorakılıqdan müdafiəsi” mövzusunda növbəti təlim keçirilmişdir.
Uşaqların qoşulduğu “Nəsimi uşaqların dili ilə” aksiyası çərçivəsində uşaqların ifasında onların videoları paylaşılırdı. Həmin aksiya ilə bağlı uşaqların 20-dən çox videosu hazırlanaraq Komitənin “facebook” sosial şəbəkəsində paylaşılmışdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və UNİCEF-in birgə təşkilatçılığı ilə29 iyul-7 avqust 2019-cu il tarixlərində Şamaxı rayonunun Çuxuryurd kəndi ərazisində

yerləşən istirahət mərkəzində uşaqlar üçün 10 günlük yay düşərgəsi təşkil edilib. Düşərgədə xüsusilə aztəminatlı ailələrdən olan 6-16 yaş arasında 40 uşaq iştirak edib. Yay düşərgəsi zamanı uşaqlara ”Uşaq hüquqları: hüquqlarımızı bilək və paylaşaq”, “Uşaqlar üçün sağlam həyat tərzi, ətraf mühitin qorunması”, "Asudə vaxtın səmərəli təşkili və dəyərləndirilməsi", “Uşaqlara qarşı zorakılıqla (bullinq)”, "Həyati bacarıqlara yiyələn!", "Uşaqların internet təhlükəsizliyi və onların onlayn zorakılıqdan müdafiəsi", "Uşaqlarda liderlik keyfiyyətlərinin inkişafı. Liderlik və idarəetmə-bacarıq və tələblər", "Ailə büdcəsinin idarə olunması" mövzularında təlimlər keçirilib, mövzular ətrafında uşaqlarla aktiv müzakirələr və qrup işləri aparılıb. Təşkil edilmiş bu yay düşərgəsi həssas uşaqların inkluziv mühitdə sosial bacarıqlarının inkişafında mühüm rol oynayıb, onların sosial fəallığının artmasına səbəb olub.

Komitə tərəfindən hər il 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə uşaqlara həsr olunmuş silsilə tədbirlər həyata keçirilir.

“Sürətlə və inamla gələcəyə” əyləncə təbliğat qatarı tədbiri keçirilmişdir. Tədbirin başlanmasına iyunun 1-də saat 8:45-də “Sürətlə və inamla gələcəyə” əyləncə təbliğat qatarının Bakı şəhərindən Gəncə şəhərinə doğru yola düşməsi ilə start verilmişdir. Tədbirin təşkilində məqsəd cəmiyyətin diqqətini uşaq hüquqlarının müdafiəsinə yönəltmək, bu işdə uşaqların iştirakını və fəallığını artırmaq, onlara müvafiq istiqamətdə imkanlar yaratmaqdır.

Sağlamlıq imkanları məhdud, xüsusi qayğıya ehtiyacı və əlilliyi olan uşaqların reabilitasiyası, ictimai həyatın bütün sahələrində iştirak etmək üçün onların digər vətəndaşlarla bərabər imkanlar alması Komitənin prioritet istiqamətlərindən biridir. “15 Fevral – Beynəlxalq Uşaq Xərçəng Xəstəlikləri ilə Mübarizə Günü” münasibətilə onkoloji xəstəlikdən əziyyət çəkən uşaqlara mənəvi dəstəyin göstərilməsi məqsədilə tədbir keçirmişdir. 17 aprel –Hemofiliya Gününə həsr edilmiş tədbir təşkil olunmuşdur. Tədbirin birinci hissəsi SOCAR Eko Parkında Assosiasiyanın kiçik yaşlı üzvləri tərəfindən ağacəkmə aksiyasının keçirilməsi ilə başlamışdır.

BMT-nin Uşaq Fondu (UNİCEF) ilə birgə uşaq müdafiəsi sahəsində dövlət qurumları tərəfindən həyata keçirilən tədbirlərə QHT-lərin və vətəndaş cəmiyyəti təşkilatlarının töhfə verə biləcəyi yolları müzakirə etmək üçün dəyirmi masa keçirilib. Dəyirmi masada uşaq müdafiəsi sahəsində ölkəmizdə mövcud mexanizmlər, təcrübələr və bu istiqamətdə dövlət və vətəndaş cəmiyyətinin birgə əməkdaşlığının gücləndirilməsi yolları müzakirə olunub.

3 Dekabr - Beynəlxalq Əlillər Günü münasibətilə “Loqos” Psixoloji və Nitq İnkişaf Mərkəzində sağlamlıq imkanları məhdud 30 nəfərə yaxın uşağın təmənnasız müayinəsi, həmçinin onların valideynləri üçün məlumat-tematik toplantı təşkil edilmişdir.

Uşaq baxımsızlığı, uşaq əməyinin istismarı və uşaqların təhsildən yayınmasının qarşısının alınması istiqamətində fəaliyyətin davamı olaraq Bakı şəhəri və Bakı şəhərində yerləşən məcburi köçkün rayonları üzrə yetkinlik yaşına çatmayanlarla işləyən polis inspektorları və yerli icra hakimiyyəti orqanlarının yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyalarının əməkdaşları üçün növbəti təlimlər keçirilmişdir.

Yetkinlik yaşına çatmayanların baxımsızlığı və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikasının 24.05.2005-ci il tarixli Qanununun icrası ilə əlaqədar yetkinlik yaşına çatmayanlarlarin hüquqlarının müdafiəsi və onlar tərəfindən törədilən hüquq pozmaların profilaktikası sahəsində Ailə, Qadın və Uşaq Problemleri üzrə Dövlət Komitəsi aidiyyəti qurumlarla birgə fəaliyyətlər həyata keçirilir. Bununla bağlı risk qrupu altında olan yetkinlik yaşına çatmayanların hazırki vəziyyətlərinin araşdırılması və qarşıdakı müddət ərzində tədbirlərin görülməsi məqsədilə Komitə aidiyyəti üzrə 27 şəhər və rayon icra hakimiyyətlərinə müraciət ünvanlamışdır.
Azərbaycan Respublikasının Prezidentinin 8 may 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın tapşırığı əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin müəyyən etdiyi dövlət uşaq müəssisələrinin siyahısı üzrə Təhsil, Səhiyyə, Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi, Gənclər və İdman Nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Bakı şəhəri İcra hakimiyyətinin mütəxəssislərindən ibarət təşkil edilmiş monitorinq qrupu tərəfindən 2019-cu ildə 8 oktyabr tarixində Eşitmə qabiliyyəti pozulmuş uşaqların respublika ixtisaslaşdırılmış körpələr evi-uşaq bağçasında, Sağlamlıq imkanları məhdud valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli Respublika xüsusi internat məktəbində, 1 nömrəli uşaq somatik sanatoriyasında, 288 saylı körpələr evi-uşaq bağçasında, 13 saylı respublika ixtisaslaşmış olimpiya ehtiyatları uşaq gənclər idman məktəbində monitorinqlər keçirilmişdir. Monitorinq qrupu tərəfindən dövlət uşaq müəssisələrinə baxış zamanı uşaqların saxlanılması, tərbiyəsi, qidalanması vəziyyəti, onların inteqrasiyası və reabilitasiyası, həmçinin müəssisənin mövcud vəziyyəti

qiymətləndirilmiş, aşkar edilmiş nöqsanlar, eləcə də müəssisələrin inkişafı ilə bağlı tövsiyələr protokollaşdırılmışdır.
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin BMT-nin Uşaq Fondunun Azərbaycan Ölkə Ofisi ilə birgə İllik Fəaliyyət Planı (2019-2020) çərçivəsində bır sıra tədbirlər həyata keçirilmişdir:

"2019-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədləri fonunda uşaqlara dair müfəssəl Milli Fəaliyyət Planı"nın hazırlanması ilə bağlı Komitə tərəfindən 24 may 2019-cu il tarixində Şirvan şəhərində yerli səviyyədə uşaq hüquqları sahəsində fəaliyyət göstərən qurumların iştirakı ilə seminar təşkil edilmişdir.
İş planı üzrə Azərbaycanda uşaqlarla bağlı mövcud vəziyyətin təhlilinin aparılması məqsədilə müvafiq məlumatların toplanılması üçün BMT-nin Uşaq Fondu tərəfindən layihənin icra edilməsinə cəlb edilmiş beynəlxalq məsləhətçi tərəfindən 10-14 iyun tarixlərində aidiyyəti dövlət qurumlarının nümayəndələri ilə birgə seminar və qarşılıqlı görüşlər keçirilmişdir.

4 saylı Cəzaçəkmə Müəssisəsində cəza çəkən qadınların azadlığa hazırlanması, azad olunduqdan sonra qısa müddətdə işlə təmin olunmalarına kömək məqsədilə onların istək və peşə imkanları nəzərə alınaraq məhkumluq müddətini bitirməyə 3 ay qalmış məhkum qadınlarla Azərbaycan Sahibkar Qadınlar Assosiasiyası tərəfindən müxtəlif sahələr üzrə sahibkarlıqla məşğul olan qadınlar arasında gələcək fəaliyyətin qurulması nəzərdə tutulub. Əməkdaşlığın səmərəli qurulması üçün ilkin olaraq məhkum qadınlar haqqında (onların peşə fəaliyyətini, eləcə də maraq və istəklərini nəzərdə tutan) sorğu-anketlər doldurulub və komitə vasitəsilə Azərbaycan Sahibkar Qadınlar Assosiasiyasına yönəldilib. 4 saylı Cəzaçəkmə Müəssisəsində komitənin nümayəndələrinin və bir qrup sahibkar qadının iştirakı ilə məhkum qadınlarla görüş çərçivəsində gələcək fəaliyyətin davamı olaraq işçi qrupunun yaradılması qərara alınıb. Eyni zamanda cari il ərzində dövlət proqramlarının və milli fəaliyyət planının həyata keçirilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir.

Uşaqların zərərli informasiyadan qorunması haqqında Qanunun tətbiqi barədə Nazirlər Kabinetinin 2018-ci il 30 noyabr tarixli 792s nömrəli Sərəncamına əsasən Komitə tərəfindən hazırlanmış "İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi Qaydası", "İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının

reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydası", "İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurasının Əsasnamə"sinin layihələri razılaşdırılması üçün Ədliyyə Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Milli Televiziya və Radio Şurası, Mətbuat Şurası, Mədəniyyət Nazirliyi və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə göndərilmişdir.

Sənəd layihəsi aidiyyəti qurumlarla razılaşdırılaraq "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanunununa əsasən Nazirlər Kabinetinə göndərilmişdir.

Hüquqi təminat şöbəsinin tədbirlər planına uyğun olaraq **Bakı Dövlət Universitetinin** hüquq fakültəsinin 1 kurs tələbələrinə 15-17 may tarixlərində ailə, qadın və uşaq hüquqları sahəsində mühazirə ilə çıxış edilmişdir. Tədbirdə uşaq hüquqlarının anlayışı, dövlətin uşaq hüquqlarının həyata keçirilməsində rolu və funksiyaları barədə məlumatlar verilmiş o cümlədən qadın hüquqlarının anlayışı, qadın hüquqları ilə bağlı qanunvericilik, qadınların zorakılıqdan müdafiəsi həmçinin məişət zorakılığı mövzusuna toxunulmuş hüquqi maarifləndirmənin əhəmiyyəti və ailə, qadın və uşaq hüquqları sahəsində ölkədə mövcud olan qanunvericilik normaları barədə məlumatlandırılmışdır.

Hüquqi təminat şöbəsinin 2019-cu ilin ikinci rübünün tədbirlər planına əsasən **Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında** hüquq fakültəsinin I-II kurs tələbələrinə 21 noyabr 2019-cu il tarixində uşaq hüquqları və məişət zorakılığı mövzularında mühazirə oxunmuşdur.

Tələbələrə uşaq hüquqlarının qorunmasında dövlət təşkilatlarının rolu, ölkədə uşaq hüquqları ilə bağlı mövcud olan qanunvericilik normalarına toxunulmuş, uşaqların informasiya təhlükəsizliyinin təmin olunmasında qəbul edilmiş yeni yanaşmalar barədə məlumatlar verilmiş, ölkəmizdə məişət zorakılığının qarşısının alınması istiqamətində görülmüş işlər barədə məlumatlar verilmiş, təcrübədə məişət zorakılığı halları mübarizənin aparılması üsulları prosesdə dövlət təşkilatlarının rolundan bəhs edilmişdir.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) ilə birlikdə artıq 2013 ildən "Cənubi Qafqazda Avropa standartlarına hüquqi yaxınlaşmanın dəstəklənməsi" regional proqramı çərçivəsində məişət zorakılığı, ailə münasibətlərində qadın hüquqları mövzularında layihələr həyata keçirir. Cari il üçün 20 rayon üzrə yerli icra hakimiyyətlərində yaradılmış gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarına "məişət zorakılığından müdafiə mexanizmləri" mövzusunda təlimlər keçirilmişdir.

Uşaq Məcəlləsi layihəsi hazırda aidiyyəti qurumlar tərəfindən verilmiş təkliflər əsasında yenidən işlənilərək təkmilləşdirilmişdir. Uşaq Məcəlləsi layihəsi 3-cü dəfə 2019-cu ilin noyabr ayında razılaşdırılması üçün aidiyyəti dövlət qurumlarına göndərilmişdir.

Hüquqi təminat şöbəsinin tədbirlər planına əsasən Azərbaycan Respublikasının vətəndaşı olan ölkə hüdudlarından kənarda valideyn himayəsindən məhrum qalan uşaqlar barəsində xarici dövlətlərin səlahiyyətli orqanlarından bir başa və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi vasitəsi ilə Komitəyə 01.01.2019-cu il tarixdən 25.12.2019-cu il tarixədək **29** məlumat daxil olmuşdur.

Uşaqların zərərli informasiyadan qorunması haqqında buklet hazırlanmışdır. Bukletdə uşaqlar üçün zərərli informasiyanın növləri, informasiya məhsullarının televiziyada göstərilmə vaxtı, informasiya məhsullarının yaş kateqoriyası, ölkə üzrə mövcud olan bütün növ informasiya məhsullarının işarələnmə qaydası və digər məlumatlar yer almışdır.

Həmçinin cari il ərzində Komitə bir sıra ölkələrin aidiyyəti dövlət orqanları ilə sıx əməkdaşlıq münasibətlərinin qurulması, eləcə də ***beynəlxalq*** təşkilatlarla əlaqələrin inkişaf etdirilməsini istiqamətində fəaliyyət göstərmiş və BMT-nin Uşaq Fondu, Əhali Fondu, Ərzaq Fondu, BMT-nin Avropa üzrə İqtisadi Komissiyası, BMT-nin İnkişaf Proqramı, UNESCO, Asiya İnkişaf Bankı, İslam Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Qızıl Xaç Komitəsi, Beynəlxalq Miqrasiya Təşkilatı, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) və s. təşkilatlar ilə əməkdaşlıq etmişdir.

Azərbaycan Qadınlarından bəhs edən kitabın təqdimatını həyata keçirmək və Azərbaycanda qadınlara seçki hüququnun verilməsinin yüzilliyi məqsədilə Fransa Respublikasında bir sıra silsilə tədbirlərdə, İsveçrə Konfederasiyasının Bazel şəhərində Ümumdünya Qadın Sammitində, Belqrad şəhərində "Lider Qadınlar və Davamlı İnkişaf-mütləq inkişaf" mövzusunda keçirilmiş Beynəlxalq Konfransda, Cenevrədə BMT-nin Mərkəzi Asiya Dövlətlərinin İqtisadiyyatı üzrə Proqramının (SPECA) Gender və Dayanıqlı İnkişaf Məqsədləri üzrə Tematik İşçi Qrupunun illik iclasında, Cenevrədə Pekin Bəyannaməsinin və Platformasının (Pekin+25) növbəti iclasında, Nayrobi şəhərində Əhali və İnkişaf üzrə Beynəlxalq Konfrans (İCPD25) Nayrobi Sammitində, Daşkənd şəhərində "XXI əsrdə gender və gənclər məsələləri sahəsində tərəfdaşlığın inkişafı" mövzusunda beynəlxalq forumda, Tehranda "Qadınlar, Davamlı Sülh və Təhlükəsizlik" mövsuzunda beynəlxalq tədbirdə, Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində keçirilmiş "İkinci Qadın Forumu"nda, Starsburq şəhərində Avropa Şurasının Uşaq Hüquqları üzrə Ad-hoc Komitəsinin (CAHENF) altıncı görüşündə,

Strasburq şəhərində Gender Bərabərliyi üzrə Komissiyasının 15-ci görüşündə, Çinin Quansi əyalətinin Nannin şəhərində "Quru və dənizin birləşməsi üzrə əməkdaşlığın müzakirəsi, innovasiyalar yolu ilə inkişafın stimullaşması" mövzusunda VII Çin-Mərkəzi Asiya Əməkdaşlığı Forumunda, Ankara şəhərində " İslam Əməkdaşlıq Təşkilat" ına üzv ölkələrində "İslam ölkələrində ana və uşaq ölümləri: 2030 hədəflərinə doğru irəliləyiş" mövzusunda yoxsulluğun azalması üzrə işçi qrupunun 14-cü iclasında, Strasburq şəhərində 2019-cu ildə orta illik qiymətləndirmə məqsədilə, Avropa Şurasının Uşaq Hüquqları üzrə Strategiyası (2016-2021) çərçivəsində "Uşaq hüquqlarının gücləndirilməsi gələcək üçün Avropanın açarıdır" mövzusunda konfransda iştiraklar təmin edilmişdir.

Komitə nəzdində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin (UADM) fəaliyyətinin təkmilləşdirilməsi, əməkdaşların iş keyfiyyətinin yaxşılaşdırlması məqsədilə ***Regional mərkəzlərlə iş şöbəsi*** tərəfindən il ərzində UADM-lara monitorinq səfərləri edilmiş, monitorinq hesabatı hazırlanmış, əməkdaşlar təlimatlandırılmışdır. Komitə nəzdində fəaliyyət göstərən UADM-larUşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramının həyata keçirilməsi məqsədilə uşaqlar və valideynlər arasında sağlamlıq, xəstəliklərin risk amilləri sahəsində müvafiq mövzularda430 nəfərin iştirakı ilə təlimlər keçirilmiş, bukletlər paylanmışdır.Azərbaycan Respublikasında kənd təsərrüfat məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin müvafiq bəndinə görə kəndin sosial-ictimai həyatında qadınların və gənclərin fəal iştirakının təmin edilməsi məqsədilə 345 nəfərə valideyn bacarıqlarının artırılması, ailə institutunun gücləndirilməsi və uşaqlara qarşı zorakılıq hallarının aradan qaldırlması mövzularında təlimlər keçirilmişdir.

Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə Milli Fəaliyyət Planının uşaq müəssisələrində, uşaqlara xidmət göstərən sosial xidmət müəssisələrində əlilliyin erkən aşkarlanması və profilaktikası məqsədilə mütəxəssis hazırlığının həyata keçirilməsi ilə bağlı "Autizm Spektr Pozuntusu olan şəxslərə dəstək" layihəsi çərçivəsində 70 nəfərin iştirakı ilə qiymətləndirmə forması üzrə praktik təlimlər keçirilmişdir.Respublikada yaşayan qaraçı ailələrinin müasir cəmiyyətə inteqrasiyası, sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə icmalarda monitorinqlərin aparılması ilə bağlı il ərzində Komitə nəzdində 11 Uşaq və Ailələrə Dəstək Mərkəzlərinəedilmiş 2349 müraciətdən 312-siəlaqələndirmə nəticəsində, 1002-si Mərkəzlərin köməyi ilə təmin olunmuşdur. Müxtəlif mövzularda (erkən nikah, məişət zorakılığı, insan hüquqları, insan alveri, sağlam həyat tərzi, ailənin qurulması və qorunması və s.) keçirilən 434

tədbirdə16450 nəfər iştirak etmiş, Mərkəz xidmətlərindən 5831 nəfər faydalanmış, ümumilikdə 2019-cu il ərzində Mərkəzlərin fəaliyyətindən 22122 nəfər bəhrələnmişdir. Cari ildə şöbənin və Uşaq və Ailələrə Dəstək Mərkəzlərin fəaliyyəti ilə bağlı 2 məlumat bülleteni, flayerlər və maarifləndirici bukletlər çap olunmuşdur.

Avropa Şurasının 70 illiyinə və Azərbaycanda qadınlara seçki hüququnun verilməsinin 100 illiyinə həsr olunan "Gender bərabərliyi və media" mövzusunda konfrans keçirilmişdir.

Komitə və Avropa İttifaqının TAİEX proqramının birgə əməkdaşlığı çərçivəsində beynəlxalq ekspertlərin iştirakı ilə "Gender bərabərliyinin təmin olunması sahəsində dövlət və qeyri-dövlət təşkilatlarının əməkdaşlığının gücləndirilməsi" mövzusunda 2 günlük seminar keçirmişdir.

Komitəvə Almaniya Əməkdaşlıq Təşkilatının (GİZ) birgə təşkilatçılığı ilə "Qadın sahibkarlığını təşviq edən təşkilatların institusional bacarıqlarının artırılmasına dəstək və "Gender həssas büdcə" mövzusunda 3 günlük təlim keçirilmişdir.

"Dayanıqlı inkişafda qadınların rolu" mövzusunda konfrans və orta məktəblərdə şagirdlərin iştirakı ilə "Uşaqların zərərli informasiyalardan qorunması" mövzusunda təlimlər keçirilmişdir.

Komitə BMT-nin Əhali Fondu ilə birgə "Azərbaycanda qadınlara qarşı zorakılığın iqtisadi xərcləri" adlı tədqiqat aparmış və ictimaiyyətə təqdim olunmuşdur.

Komitənin təşkilatçılığı ilə "Qadın və uşaq hüquqları media müstəvisində" mövzusunda konfrans keçirilmişdir. Milli Mətbuat Günü münasibətilə keçirilən konfransda mediada ailə, qadın və uşaq məsələlərinin peşəkar işıqlandırılmasına görə, bu sahələrdə aparılan araşdırmalar və təhlillər üzrə 2019-cu ilin monitorinqinin nəticələrinə əsasən mükafatlandırılma mərasimi keçirilmişdir.

Almaniya Əməkdaşlıq Təşkilatının (GİZ) Yerli və Regional İnkişafa Dəstək layihəsi çərçivəsində yerli və regional sosial infrastrukturun qurulmasında qadınların iştirakının təmin edilməsi üçün onlarla bilik və bacarıqların inkişafı, istiqamətində maarifləndirici təlimlər keçirilmişdir. GİZ ilə birgə keçirilən "Dayaq" Mentorluq proqramı çərçivəsində yerli icra hakimiyyətlərinin qadın müavinləri və digər məsul əməkdaşları, eyni zamanda bələdiyyə üzvləri üçün"Gender və Liderlik təlimləri" keçirilmişdir.

Komitə və Almaniya Əməkdaşlıq Təşkilatının(GİZ) birgə təşkilatçılığı ilə "Bələdiyyələrdə qadın iştirakçılığı: hüquqi və institusional mexanizmlər, gender bərabərliyi yanaşmasının təşviqi" mövzusunda konfrans keçirilmişdir.

"2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nda "Uşaq əməyindən istifadə vəziyyətinin öyrənilməsinə dair seçmə statistik müayinənin metodologiyasının hazırlanması və müayinənin keçirilməsi" tədbirinin (5.1.1.5-ci yarımbəndi) icrası ilə əlaqədar müayinə keçirilmişdir. Hazırda məlumatların emalı və ilkin hesabatın hazırlanması üzrə iş gedir. Həmin nəticələr Dövlət Statistika Komitəsi və Prezident Administrasiyasına göndərilmişdir.

Komitənin "facebook", "youtube" və "twitter" sosial şəbəkələrində insan hüquqlarının, xüsusən də qadın və uşaq hüquqlarının müdafiəsi, dövlət xidmətlərində şəffaflığın artırılması, korrupsiya hallarının qarşısının alınması və digər istiqamətlərdə təbliğat xarakterli materiallar yayımlanmış, videoçarxlar nümayiş olunmuşdur. Komitənin vacib tədbirləri "facebook" vasitəsilə canlı yayımlanmışdır.
Məişət zorakılığı ilə bağlı "Online" Məlumat Bankından istifadə qaydası ilə bağlı yerli icra hakimiyyəti üzrə təyin edilmiş məsul şəxslər üçün 30 may 2019-cu il tarixində Qubada Quba, Qusar, Xızı, Xaçmaz, Siyəzən və Şabran rayonlarından olan əməkdaşlar üçün təlim keçirilmişdir.
Məruzə və çıxışları nəzərə alaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

1. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2019-cu il üzrə fəaliyyəti haqqında Hesabat nəzərə alınsın.
2. Ailə Problemləri şöbəsinə tapşırılsın ki, ailə dəyərlərinin təbliği və dövlətin ailə siyasəti istiqamətində tədbirlərin keçirilməsi davam etdirilsin.
3. Kənd qadınlarının ictimai fəallığının artırılması və onlara iqtisadi biliklərin öyrədilməsi istiqamətində tədbirlərin gücləndirilməsi və bu məqsədlə qadın resurs mərkəzlərinin inkişaf etdirilməsi Qadın problemləri və Gender məsələləri şöbəsinə tapşırılsın.
4. Uşaq hüquqları Konvensiyasının icra vəziyyətinə dair dövri hesabatın hazırlanması Uşaq problemləri şöbəsinə tapşırılsın.

5. Hüquqi təminat şöbəsinə tapşırılsın ki, Komitəyə müraciət etmiş məişət zorakılığı qurbanlarının hüquqlarının bərpasına nəzarət gücləndirilsin, yerli rayon icra hakimiyyətlərində yaradılmış Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları ilə işlər daha da gücləndirilsin.
6. Regional mərkəzlərlə iş şöbəsinə tapşırılsın ki, regional mərkəzlərdə ailə, qadın və uşaq problemləri istiqamətində görülən işlər, tədbirlər daha da gücləndirilsin.
7. Əlaqədar şöbələrə tapşırılsın ki, gender bərbərliyi və məişət zorakılığı qanunlarının həyata keçirilməsi istiqamətində tədbirlər davam etdirilsin.
8. Vətəndaşların qəbulu, ərizə və məktubların icra intizamı istiqamətində səmərəli fəaliyyət artırılsın, Açıq qapı günləri, regional qəbullar təcrübəsi davam etdirilsin.
9. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2019-ci il üzrə fəaliyyəti haqqında hesabatın Nazirlər Kabinetinə təqdim edilməsi Komitə Aparatının rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.
10. Qərarın icrasına nəzarət Sədr müavinləri Sədaqət Qəhrəmanovaya, Aynur Sofiyevaya, Aparatın rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Hicran Hüseynova**